# "Gülüstan"lı dostlarıma

Yenə qədim Quba, əvvəlki məclis,
Məclisi aparır ağsaqqal səlis.
O, safdır, təmizdir, qızıldır xalis,
Şixəmməd, gərəksən bu "Gülüstan"a.

Həmişə işıqlı olubdur yolu,
Ağsaqqal hikmətli, sinəsi dolu.
Elini çox sevir, olub Eloğlu,
Zakir də tanınıb Azərbaycana.

Tanıyır  iki xalq o, nəyə qadir,
Sadə "fövqəladi diplomat şair.
Azərbaycan Zöhrə, vurulub Tahir,
Hər zaman gətirir şan Dağıstana.

Karvan qarşılayıb,xaqanlar görüb,
Şabran oğulları qalalar hörüb.
Qafar Süleyman da bir dövran sürüb,
Yazıb öz adını həmin dastana.

Gülərüz,mehriban, günəş çöhrəli,
Dostlar çiynindədir daim bir əli.
Şərəfli yol seçib Rüklü Pirəli,
Hər kəsi "Çeşmə" də çəkib ekrana.

Rəngindən tanıyır hər bir budağı
Sevib əzizləyir otu, yarpağı.
Güləli, kətmənlə öldür torpağı,
Şan-şöhrət gətirsin torpaq Bağbana

Girmə Böyükağa, bu meydana sən,
Sən hələ məsumsan, bir ağ xanəsən.
Güvənib arxalan "Gülüstan"a sən,
İnşallah tanıdar səni Turana

**Böyükağa Ağa**